

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 170 (21.580)

10 sentyabr 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da İndoneziya Respublikası Xalq Məşvərət Məclisinin sədr müavini Oesman Sapta Odanqın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə İndoneziya arasında ikitərəfli əlaqələrin çox sürətlə inkişaf etdiyini vurğulayıb. Ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birinə həmişə dəstək vermələrinin önəmini qeyd edən Prezident İlham Əliyev iqtisadi, enerji, turizm və digər sahələrdə də əlaqələrimizin inkişaf etdirilməsinin zəruriliyini bildirib. Azərbaycan ilə İndoneziya arasında ticarət dövriyyəsinin istənilən səviyyədə olmadığını təəssüflə qeyd edən dövlətimizin başçısı birgə səylər nəticəsində bu sahədə də irəliləyişlərə nail olmağın mümkünlüyünü deyib. İndoneziyanın turizm sahəsində böyük təcrübəyə malik olduğunu vurğulayan Prezident İlham Əliyev bu istiqamətdə də əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu bildirib. Azərbaycan Prezidenti turizm sahəsində əlaqələrin genişləndirilməsi üçün ölkələrimiz arasında viza rejiminin sadələşdirilməsi istiqamətində zəruri addımların atılmasının məqsədəuyğun olduğunu deyib. Dövlətimizin başçısı daha çox indoneziyalının Azərbaycanla tanış olmalarında ölkəmizin maraqlı olduğunu vurğulayıb.

Prezident İlham Əliyev İndoneziya Respublikasının Xalq Məşvərət Məclisinin sədr müavini Oesman Sapta Odanqın böyük nümayəndə heyəti ilə Azərbaycana səfərinin ölkələrimiz arasında ikitərəfli münasibətlərin möhkəmləndirilməsi baxımından əhəmiyyətli olacağına əminliyini ifadə edib.

Xalq Məşvərət Məclisinin sədr müavini Oesman Sapta Odanq Azərbaycan Prezidentinin İndoneziyaya səfərinin ölkəsində böyük səbirsizliklə gözlənildiyini deyib və İndoneziya Prezidentinin rəsmi dəvətini Prezident İlham Əliyevə çatdırıb.

Sonda xatirə şəkli çəkdirilib.

## Qədim Xanəgah kəndi müasir yaşayış məntəqəsinə çevrilib

Culfa rayonunun Xanəgah kəndi muxtar respublikanın qədim tarixə malik yaşayış məskənlərindəndir. Orta əsrlərdə Şərqin əsas elm və mədəniyyət mərkəzi olan bu kənddə son illər geniş quruculuq işləri aparılmışdır. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramının icrası nəticəsində kəndin siması tamamilə dəyişmiş, Xanəgah müasir Azərbaycan kəndinə çevrilmişdir.

## Xanəgah kənd həkim ambulatoriyası istifadəyə verilmişdir








Naxçıvan Muxtar Respublikasının kəndlərində aparılan quruculuq işlərinin əsas xarakterik cəhətlərindən biri də insanların sağlamlığına xidmət edən müasir səhiyyə müəssisələrinin tikilib istifadəyə verilməsidir.

Sentyabrın 9-da Xanəgah kənd həkim ambulatoriyasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Xanəgah kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Ramin Paşayev çıxış edərək demişdir ki, Culfa rayonunun digər kəndləri kimi Xanəgah kəndi də günü-gündən inkişaf edir. Kənddə əhalinin rahat yaşayışı və rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Bu il kənddə həkim ambulatoriyası üçün yeni bina tikilmiş, məktəb binası yenidən qurulmuş, Xanəgah abidə kompleksi təmir olunmuşdur. Həmçinin elektrik və rabitə xətləri yenilənmiş, yollar yenidən qurulmuşdur. Bütün bunlar kənd yerində insanların sağlamlığına və təhsilinə, eləcə də xalqımızın tarixinə və mədəniyyətinə, tarixi dəyərlərimizin yaşadılmasına göstərilən qayğının parlaq ifadəsidir. Ramin Paşayev bu diqqət və qayğıya görə kənd əhalisi adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Xanəgah kəndində aparılan quruculuq işləri münasibətilə sakinləri təbrik edərək demişdir: Ölkəmizdə qəbul olunan dövlət proqramları uğurla icra olunur, kəndlər abadlaşır, insanların yaşayış səviyyəsi yaxşılaşır, məskunlaşma artır. Bütün bunlar ölkəmizin gələcək inkişafına xidmət edir. Çünki inkişafın olduğu, məskunlaşmanın ilbəil artdığı, dövlət-xalq birliyinin təmin olunduğu ölkənin gələcəyi də etibarlı olur. Azərbaycanda bu tədbirlərin əsası ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə qoyulmuşdur. Hazırda bu siyasət ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Xanəgah kəndində həyata keçirilən kompleks quruculuq tədbirləri də ölkəmizin inkişafı sahəsində görülən işlərin nəticəsidir.

Qeyd olunmuşdur ki, Xanəgah kəndi tarixdə iz qoyan yaşayış məntəqəsidir. Bu ərazidəki Əlincəqala ölkəmizdə ümumilikdə əyilməzlik simvolu kimi tanınır. Eyni zamanda hürufiliyin banilərindən olan Fəzlullah Nəiminin türbəsi də bu kənddə yerləşir. Kənd tarixən elm, təhsil və mədəniyyət mərkəzi olubdur. Quruculuq işləri aparıldıqdan sonra kənddə müasirliklə tarixiliyin vəhdəti yaradılmışdır. Həkim ambulatoriyasının, məktəb binasının, kənd və xidmət mərkəzlərinin tikilməsi, Xanəgah abidə kompleksinin və Əlincəqalanın bərpa olunması, yolun yenidən qurulması, içməli su xəttinin çəkilməsi və digər quruculuq tədbirlərinin həyata keçirilməsi kəndi abadlığa qovuşdurmuş, insanların rahat yaşayışı təmin olunmuşdur.

Ali Məclisin Sədri demişdir: Xanəgah kəndində tarixi abidələrin yerləşməsi, eləcə də aparılan quruculuq işləri onun turizm potensialını artırır. Kəndə gələn qonaqların sayı ilbəil artır. Ona görə də kənd sakinləri daim kəndin abadlığına, təmizliyinə diqqət yetirməli, tikilənlər, qurulanlar qorunub saxlanılmalıdır.

Ali Məclisin Sədri bir daha sakinləri təbrik etmiş, kəndin abadlaşmasında əməyi olanlara təşəkkürünü bildirmiş, açılışı bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, ambulatoriya 11 otaqdan, o cümlədən baş həkim, stomatoloq üçün kabinə, palata, doğuş, peyvənd, mama, manipulyasiya, aptek, qeydiyyat, tibb bacısı və təsərrüfat otaqlarından ibarətdir. Binada istilik sistemi quraşdırılmış, həyətdə abadlıq işləri aparılmışdır.

Həkim ambulatoriyası kənddə səhiyyə xidmətinin səviyyəsini xeyli yaxşılaşdıracaqdır. Hazırda tibb işçiləri peyvənd və hamilə qadınlara patronaj işinin təşkilini diqqətdə saxlayırlar. Bu il kənddə 8 uşaq doğulmuşdur. Haliyədə 4 hamilə qadın ambulatoriyada qeydiyyatdadır.

Ali Məclisin Sədri tibbi xidmətin təşkili ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini vermişdir.

Həkim ambulatoriyası ilə tanışlıqdan sonra kənd sakinləri ilə görüş olmuşdur.

Xanəgah kənd sakini, ziyalı Akif Səfərov demişdir: Kəndin inkişafına böyük diqqət göstərilir. Son illər yeni sosial obyektlər tikilərək istifadəyə verilmişdir. Müasir məktəb binası uşaqların yaxşı təhsil almasına, savadlı gənclər yetişdirilməsinə imkan verəcəkdir.

Ardı 2-ci səhifədə

Xanəgah abidə kompleksinin, Əlincəqalanın bərpa olunması kəndi turizm mərkəzinə çevirmişdir. Mənzillərimizdə sürətli internetdən istifadə edirik. Kənddaxili yollara asfalt örtük salınıb, rahat hərəkət təmin edilib. Aparılan quruculuq işləri nəticəsində kənddə yeni iş yerləri açılıb. Hazırda Xanəgahda müasir evlər tikilir, şəxsi avtomobillərin sayı artır. Bu da ölkəmizdə insanların rifahının yaxşılaşdırılması sahəsində görülən işlərin nəticəsidir. Sakinlər yaradılan şəraitdən səmərəli istifadə edərək təsərrüfatlarını genişləndirirlər. Dövlətimizin kənd adamlarına göstərdiyi qayğının nəticəsidir ki, heyvandarlıq, arıçılıq, meyvəçilik, əkinçilik əsas məşğuliyyət sahəsinə çevrilib. Akif Səfərov yaradılan şəraitə görə kənd sakinləri və ziyalılar adından minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikanın hər bir kəndi abadlaşır. İnsanların rahat yaşayışı üçün tədbirlər görülür. Dağ və sərhəd kəndlərində yeni məktəb binaları tikilir, yollar çəkilir, dövlət qurumları üçün binalar, həkim ambulatoriyaları istifadəyə verilir. Bundan sonra da kəndlərin abadlaşdırılması sahəsində görülən işlər davam etdiriləcəkdir. Yaradılan şəraitin nəticəsidir ki, bu il Xanəgah kənd tam orta məktəbinin məzunlarından 5-i ali məktəblərə qəbul olub, 1-i 500-700 arası bal toplayıb. Bir sözlə, tikilənlər, qurulanlar sakinlər üçündür. Ona görə də sakinlər qurulanları qorumalı, yaşıllıqları artırmalı, kəndin inkişafına öz töhfələrini verməlidirlər.

## Kənd məktəbinin binası yenidən qurulmuşdur







Sentyabrın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Xanəgah kənd tam orta məktəbində yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, məktəb binası yenidən qurulmuş, müasir tədris avadanlıqları quraşdırılmış, binanın həyətində bufet və qazanxana tikilmişdir. 198 şagird yerlik 2 mərtəbəli məktəbdə 3-ü elektron lövhəli olmaqla, 11 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat otağı, kompüter otağı, müəllimlər otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları şagirdlərin istifadəsinə verilib. Məktəbin kitabxana fondunda 3575 dərslik və bədii ədəbiyyat vardır. Həmçinin məktəb elektron dərsliklərlə də təmin olunmuşdur.

Məktəbdə informasiya texnologiyalarının tətbiqi diqqətdə saxlanılmış, 18 kompüter quraşdırılmış və internetə qoşulmuşdur. Elektron lövhəli siniflər yeni tədris ilində distant təhsilin tətbiqinə və dərslərin daha mütəşəkkil keçirilməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri məktəbdə müəllim-şagird münasibətlərinin qarşılıqlı hörmət və tələbkarlıq əsasında qurulması, eləcə də tədrisin keyfiyyətinin daha da yüksəldilməsi barədə tapşırıqlar vermişdir.

## Xanəgah abidə kompleksi bərpa olunmuşdur





Naxçıvanda tarixi-mədəni irsimizə qayğı ilə yanaşılır, əcdadlarımızın miras qoyub getdiyi mədəni sərvətlərimiz gələcək nəsillər üçün qorunub saxlanılır. Xanəgah abidə kompleksinin bərpası da bu sahədə görülən işlərin davamıdır.

Sentyabrın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Xanəgah abidə kompleksinə gəlmiş, burada görülən işlərlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, abidədə geniş bərpa işləri aparılmış, türbənin dam örtüyü yenilənmiş, işçilər üçün otaq yaradılmış, həyət abadlaşdırılaraq yeni işıqlandırma sistemləri quraşdırılmışdır. Naxçıvan memarlıq məktəbinin daha bir nümunəsi olan abidə 12-15-ci əsrlərə aid edilir. Arxiv materiallarında Xanəgahın 18-ci əsrdə də fəaliyyət göstərdiyi qeyd olunur. Abidənin giriş baştağında Möminə xatın türbəsinin elementlərindən istifadə olunmuşdur. Hürufilik təliminin banilərindən olan Fəzlullah Nəimi 1394-cü ildə Əlincədə qətlə yetirildikdən sonra müridləri onun cənazəsini burada dəfn etmişlər. Xanəgah uzun müddət yaşayış, ibadət və zikr yeri olmuş, tarixin müxtəlif dövrlərində isə həm də elm, təhsil və mədəniyyət mərkəzi kimi fəaliyyətini davam etdirmişdir. Abidə turistlərin böyük marağına səbəb olur.

Ali Məclisin Sədri abidənin qorunub-saxlanılması, ziyarətçilərə onun tarixi haqqında dolğun məlumatlar verilməsi barədə tapşırıqlar vermişdir.

* * *

Xanəgah kəndində abadlıq işləri də görülmüşdür. Kənddaxili avtomobil yollarına 1300 metr məsafədə asfalt örtük salınmış, 20 su keçidi qoyulmuşdur. Həmçinin kənddə 350 metr məsafədə fiberoptik kabel, 500 metr müxtəlif tutumlu rabitə və 400 metr elektrik xətti çəkilmişdir. Kənddəki mövcud kaptaj və içməli su xətlərində də təmir işləri aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**





## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Sentyabrın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının ölkəmizdəki səfiri Möhsün Pakayin ilə görüşmüşdür.

Ali Məclisin Sədri səfirin ölkəmizdəki diplomatik fəaliyyətini uğurla başa çatdırdığını və ötən dövrdə Azərbaycan-İran əlaqələrinin inkişaf etdiyini bildirmişdir. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasında əlaqələrin genişləndirildiyini də diqqətə çatdıran Ali Məclisin Sədri bu istiqamətdəki səylərinə görə Möhsün Pakayinə təşəkkür etmişdir.

Möhsün Pakayin ölkələrimiz arasındakı əlaqələrin inkişafından danışmış, həyata keçirilən qarşılıqlı səfərlərin və imzalanan sənədlərin əhəmiyyətini qeyd etmiş, diplomatik fəaliyyəti dövründə ona göstərilən dəstəyə görə minnətdarlığını bildirmişdir.

İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanın zəngin təbiəti, güclü iqtisadiyyatı Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirini heyran edib



*Sentyabrın 9-da Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Robert Sekuta Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Şahbuz Dövlət Təbiət Qoruğu ilə tanış olub.*

Burada qonağa məlumat verilərək bildirilib ki, dəniz səviyyəsindən 2450 metr yüksəklikdə olan Batabat yaylağı ərazisindəki 3139 hektar sahəni əhatə edən Şahbuz Dövlət Təbiət Qoruğunda hazırda 32 növ vəhşi heyvan, 127 növ quş, 1580 növ bitki qorunur. 2003-cü il iyun ayının 16-da ulu öndərimiz Heydər Əliyev böyük uzaqgörənliklə Şahbuz Dövlət Təbiət Qoruğunun yaradılması ilə bağlı Fərman imzalayıb. O vaxta qədər qoruq ərazisində olan heyvanların, quşların və bitkilərin bəzilərinin sayı az idi. Lakin qoruq elan olunan ərazidə dövlət qayğısı ilə həyata keçirilən tədbirlər, görülən işlər nəticəsində bu gün hətta nəsli kəsilməkdə olan heyvanların, quşların baş sayının artımı müşahidə olunmaqdadır. Fauna və floranın qorunması işində dövlət tərəfindən göstərilən qayğı ən böyük amildir.

Səfir Robert Sekuta Batabat yaylağındakı göllər ilə yaxından maraqlanıb. Diqqətə çatdırılıb ki, bu hidroloji abidələr eyniadlı 3 su hövzəsindən ibarətdir. Ümumi su tutumu, təqribən, 3 milyon kubmetrdir. Məşhur Üzən ada, Zorbulaq da burada yerləşir. Üzən ada sfaqnum mamırlarından və onun üzərində bitən örtüklərdən formalaşıb. Küləyin istiqamətindən asılı olaraq ada öz yerini dəyişir.

Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Batabatın təbiət mənzərəsinə və buradakı hidroloji abidələrə heyranlığını ifadə edib.

Naxçıvan Günəş Elektrik Stansiyasında səfirə məlumat verilib ki, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi ilə Belçika Krallığının "Soltech" şirkəti arasında bağlanan müqaviləyə əsasən, Babək rayonunun Xal-xal kəndi yaxınlığında 20 meqavat gücündə Günəş elektrik stansiyası quraşdırılıb. Məqsəd muxtar respublikanın elektrik enerjisi tələbatının alternativ enerji mənbələri hesabına ödənilməsini təmin etmək və enerji təhlükəsizliyini daha da möhkəmləndirməkdən ibarətdir. Günəş elektrik stansiyası muxtar respublikanın enerji istehsalında alternativ enerji mənbələrinin ümumi payını xeyli artırıb, ucuz elektrik enerjisi istehsalına imkan verib.

Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Naxçıvan Biznes Mərkəzində olub, burada yerli məhsulların nümayiş etdirildiyi sərgiyə baxıb.

Sentyabrın 9-da səfir Robert Sekuta Naxçıvan Muxtar Respublikasına səfərinin nəticələri ilə bağlı muxtar respublikada fəaliyyət göstərən yerli və mərkəzi mətbuat nümayəndələrinə müsahibə verib, sualları cavablandırıb.

* * *

Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Robert Sekuta "Şərq qapısı" qəzetinə məxsusi müsahibə verib. Həmin müsahibəni oxucularımıza təqdim edirik:



***– Siz muxtar respublikanın təbiət mənzərələri ilə tanış oldunuz. Naxçıvan Muxtar Respublikasında ekoturizmin inkişafı perspektivlərini necə qiymətləndirirsiniz?***

– Əvvəlcə qeyd etmək istərdim ki, mən Naxçıvan Muxtar Respublikasına səfərimdən çox məmnunam. Həyat yoldaşım En xanımla mən Naxçıvanın tarixi yerləri, eyni zamanda füsunkar təbiəti ilə tanış olmaq fürsətini yüksək dəyərləndiririk. Biz Şahbuz Dövlət Təbiət Qoruğuna gedərkən yolboyu ətrafı seyr etdik. Çox möhtəşəm, əvəzolunmaz təbiət mənzərələri ilə qarşılaşdıq. Şahbuz Dövlət Təbiət Qoruğunun ərazisi isə bizi heyran etdi, bizdə buranın böyük turizm potensialına malik olmasına dair əminlik yarandı. Batabat yaylağının qorunub saxlanılması gələcəkdə də turizmin inkişafı üçün əsaslı zəmin yaradır. Burada ekoturizmin inkişaf etdirilməsi üçün geniş imkanlar var.

Xüsusən qeyd etmək istərdim ki, Şahbuz Dövlət Təbiət Qoruğu ilə tanışlıq insanda xoş təəssüratlar yaradır. Qoruq barədə ətraflı məlumat verildi. Buna görə minnətdaram. Qoruq ərazisindəki göldə olan Üzən ada, Zorbulaq və ətrafdakı təbiət mənzərələri özünün cazibədarlığı, gözəlliyi ilə seçilir, insanda maraq oyadır.

Düşünürəm ki, Naxçıvanın təbiət mənzərələri gözəlliyi ilə seçilən Azərbaycanın vacib bir hissəsidir. Muxtar respublika heyranedici təbiət mənzərələri ilə zəngindir.

Amerikada biz bunu tam şəkildə anlayırıq ki, insanla təbiət qırılmaz tellərlə bir-birinə bağlıdır və bu bağlılıq çox vacibdir, əhəmiyyətlidir. Ona görə də təbiətin, ətraf mühitin qorunması böyük əhəmiyyət kəsb edir. Onun qorunması ümumi evimiz olan Yer kürəsinin qorunması deməkdir. Çünki dövlətlərin sərhədləri olsa da, təbiətin sərhədi yoxdur. Bu da reallıqdır ki, ətraf mühitin qorunmasında heç bir hökumət təkbaşına heç nə edə bilməz. Bu məsələ həmrəylik, birlik tələb edir. Təbiətin mühafizəsi hökumət nümayəndələri ilə cəmiyyət arasında olan sıx əməkdaşlıq və qarşılıqlı anlayış, ümumi məqsədlərə çatmaq naminə birgə səylər tələb edir. Yalnız bu şəkildə təbiətin qorunması uğurla həyata keçirilə bilər. Çox gözəl haldır ki, Naxçıvanda biz bunu müşahidə etdik.

***– Siz muxtar respublikanın mədəniyyət müəssisələri ilə, o cümlədən Naxçıvanda istehsal olunan məhsullarla da tanış oldunuz. Bu barədə fikirləriniz oxucularımız üçün maraqlı olardı.***

– Muxtar respublikanın qədim tarixini əks etdirən abidələr, o cümlədən muzeylərdə nümayiş etdirilən eksponatlar barədə məlumatları maraqla dinlədik. Burada məlumat verildi ki, amerikalı tədqiqatçılar, arxeoloqlar Naxçıvanda aparılan müəyyən elmi araşdırmalarda və arxeoloji qazıntılarda iştirak edirlər. Biz bu sahədə qarşılıqlı əməkdaşlığın davam etdirilməsinin tərəfdarıyıq.

Naxçıvan Biznes Mərkəzində muxtar respublikada istehsal olunan çeşidli məhsullarla tanış olduq. Naxçıvanda fəaliyyəti bərpa edilmiş və yeni qurulmuş müəssisələrdə istehsalın artırılması, idxalın yerli istehsal hesabına əvəzlənməsi istiqamətində görülən işlər yüksək qiymətə layiqdir. Xüsusən də neft qiymətlərinin dünya bazarında aşağı olduğu bir dövrdə qeyri-neft sektorunun inkişaf etdirilməsi vacibdir. Muxtar respublikada yeni müəssisələrin yaradılması bu baxımdan əhəmiyyətlidir.

Biz Azərbaycanla, o cümlədən Naxçıvan Muxtar Respublikası ilə iqtisadiyyatın diversifikasiyası, kənd təsərrüfatının inkişafı sahələrində, həmçinin təhsil sahəsində qarşılıqlı təcrübə mübadiləsinin aparılmasında maraqlıyıq. Bu gün onlarla azərbaycanlı təhsil mübadiləsi proqramından faydalanaraq Amerikada təhsil alıb. Biz bununla kifayətlənə bilmərik. Həm Azərbaycandan Amerikaya, həm də Amerikadan Azərbaycana gələn insanların sayının artmasını, turizmin inkişaf etdirilməsini istəyirik.

Naxçıvana səfərimdən çox məmnunam. Ümid edirəm ki, bir daha muxtar respublikaya səfərə gələcəyəm.

**Rauf ƏLİYEV**

## Litva və latviyalı diplomatlar Naxçıvanın təhsil, səhiyyə və istehsal müəssisələri, turizm məkanları ilə tanış olublar



*Xəbər verdiyimiz kimi, sentyabrın 7-də Litva Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Valdas Lastauskas və Latviya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Yuris Maklakovs Naxçıvan Muxtar Respublikasına səfərə gəliblər. Səfərin birinci günü mədəniyyət müəssisələri ilə tanış olan diplomatlar dünən Naxçıvanın gəzməli-görməli yerləri, təhsil, səhiyyə, yerli istehsal və emal müəssisələri ilə tanış olublar.*

Sentyabrın 9-da Naxçıvan Dövlət Universitetinə gələn qonaqlara muxtar respublikada təhsilin inkişafına göstərilən qayğı, universitetin strukturu, maddi-texniki bazası, mövcud fakültə və ixtisaslar haqqında ətraflı məlumat verilib.

Bildirilib ki, dünyanın 80-dən çox tanınmış ali təhsil ocağı ilə beynəlxalq əməkdaşlığa malik olan universitet TEMPUS proqramı çərçivəsində 5 beynəlxalq layihənin iştirakçısıdır. Tələbə mobilliyinin inkişafı nəticəsində universitetin bakalavr və doktorantları öz təhsillərini Polşa, Rumıniya, İspaniya, İtaliya, Çexiya və digər ölkələrin ali məktəblərində davam etdirirlər.

"Naxçıvan" Universitetində isə qonaqlar bu təhsil ocağı üçün inşa olunmuş yeni universitet şəhərciyi ilə tanış olublar. Məlumat verilib ki, müasir tələblərə cavab verən universitetdə yaradılmış şərait nəticəsində burada təhsil alan tələbələrin sayı hər il artır. Ali məktəbdə təhsilin keyfiyyəti yüksəldilir, ixtisas fənləri üzrə elmi dərəcəsi olan müəllimlərə üstünlük verilir, tədris zamanı müasir təlim texnologiyalarından istifadə diqqətdə saxlanılır.

Qeyd olunub ki, bu gün "Naxçıvan" Universitetinin beynəlxalq əlaqələri də genişləndirilib, Almaniya, Türkiyə, Rumıniya, Çexiya və Latviya universitetləri ilə əlaqələr yaradılıb.

"Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi", "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli cəmiyyətləri və Naxçıvan Avtomobil Zavodunda olan pribaltikalı diplomatlara müəssisələrin istehsal gücü, istehsal olunan məhsulların çeşidi və ixrac imkanları barədə məlumat verilib.

Şahbuz rayonu ərazisində yerləşən Batabat kurort zonası və Ağbulaq İstirahət Mərkəzi ilə tanışlıq isə qonaqların muxtar respublikanın ecazkar təbiəti və turizm potensialı haqqında ətraflı məlumatlar almasına imkan verib.

Sonra Naxçıvan Günəş Elektrik Stansiyasında olan səfirlərə muxtar respublikada alternativ enerji mənbələri hesabına həyata keçirilən tədbirlər, o cümlədən stansiyanın iş prinsipi haqqında məlumat verilib.

Uzunoba Su Anbarı ilə tanışlıqdan sonra diplomatlar Duzdağ Fizioterapiya Mərkəzinin fəaliyyəti ilə maraqlanıblar. Məlumat verilib ki, 1979-cu ildə qədim duz mədənlərinin bazasında yaradılan mərkəzdə bronxial-astma və ağciyər bronx sisteminin digər qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanlar müalicə olunur. Naxçıvanda havanın təmiz, iqlimin quru, günəşli günlərin sayının çox olması 350 yerlik xəstəxanada rütubətin səviyyəsini normal saxlayır. Müalicə turizminin inkişafı baxımından mühüm əhəmiyyət daşıyan mərkəzə dünyanın bir çox ölkələrindən müraciətlər olur.

Litva Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Valdas Lastauskas və Latviya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Yuris Maklakovsun Naxçıvan Muxtar Respublikasına səfəri dünən başa çatıb.

Qeyd edək ki, hər iki ölkənin səfiri "Şərq qapısı" qəzetinə müsahibə verib. Muxtar respublikaya ilk dəfə səfər edən qonaqlar regionun inkişafını yüksək qiymətləndiriblər və Naxçıvanda gördüklərinin onlarda xoş ovqat yaratdığını bildiriblər. Bununla bağlı hazırladığımız materialı qəzetin növbəti nömrəsində oxuculara təqdim edəcəyik.

**Səbuhi HƏSƏNOV**

# Xeyirxahlığın, insanpərvərliyin və bərabərliyin rəmzi – Qurban bayramı



*Qurban bayramı ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının ən böyük mənəvi dəyərlərindən hesab etdiyi İslam dininin müqəddəs bayramlarından biridir. Əsrlərboyu xalqımız Qurban bayramını böyük sevinc və coşqu hissi ilə qarşılamış, qurbankəsmə mərasimini öz milli adət-ənənəsinə, mənəvi dəyərinə çevirmişdir.*

Bu dəyərlərdən, əsasən, qonaqpərvərlik, rəhmlilik, xeyriyyəçilik, kimsəsizlərə baş çəkmək, başqalarının dərdinə şərik çıxmaq xalqımızın sahib olduğu mənəvi zənginliklərdəndir. Məhz Qurban bayramına məxsus ənənələrin, məsələn, qurbanlıq heyvanın bir müddət qabaq bəslənməsi, bəzədilib Allah yolunda kəsilərək, əsasən, kasıblara, yoxsullara paylanması, bayram süfrələrinin təşkil edilməsi və sair xalqımıza məxsus dəyərlərlə üst-üstə düşdüyündən bu bayram ölkəmizdə daha təmtəraqlı qeyd edilir. Sovetlər Birliyinin süqutundan sonra müstəqillik qazanan Azərbaycan Respublikası, nəhayət, milli və dini bayramlarını dövlət səviyyəsində keçirməyə nail olmuşdur. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra xalqımız Onun rəhbərliyi altında daha sıx birləşərək adət-ənənələrinə, dəyərlərinə möhkəm bağlanmış, əldə etdiyi bir çox demokratik prinsiplərlə yanaşı, müqəddəs bayramlarını da azad şəkildə keçirmək hüququ qazanmışdır.

Azərbaycan müsəlman dünyasının ayrılmaz parçasıdır və tarixən İslami dəyərlərin və bununla bağlı mədəniyyətin inkişafına misilsiz töhfələr vermişdir. Digər müsəlman ölkələri kimi, Azərbaycanda da İslam dinindən irəli gələn vəzifələr yerinə yetirilir. Hər il yüzlərlə azərbaycanlı zəvvarın Həcc ziyarətinə yola düşməsi və bu ziyarətin vacib əməllərindən hesab olunan qurban kəsilməsinə əməl etməsi xalqımızın İslam dininə bağlılığını nümayiş etdirir. Ölkəmizdə İslam dininin saflığı, onun vacib əməllərinin yerinə yetirilməsi istiqamətində ardıcıl tədbirlər görülmüşdür. Bütün bunların nəticəsidir ki, milli-mənəvi dəyərlərə və ənənələrə ehtiramla yanaşılan Azərbaycanda Qurban bayramı hər il böyük təntənə ilə keçirilir. Xalqımız Qurban bayramını bu il sentyabr ayının 12-13-də qeyd edəcəkdir.

Ulu öndər bu müqəddəs bayramı yüksək qiymətləndirərək demişdir: ***"Bütün müsəlmanların böyük təntənə ilə qeyd etdikləri Qurban bayramı insanın ən çətin məqamlarında düzgün mövqe seçmək, ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq qüdrətini təcəssüm etdirir".***

Milli-mənəvi, İslami dəyərlərin qorunması və təbliğinə ciddi diqqət yetirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev insanlar arasında həmrəyliyin və saflaşmanın bərpa olunmasında bu bayramın rolunu yüksək qiymətləndirmişdir. Dövlət başçısının Qurban bayramı münasibətilə bu il Azərbaycan xalqına təbrikində deyilir: ***"Azərbaycan xalqı həmişə milli-mənəvi dəyərlərə və ənənələrə sədaqət və qayğı ilə yanaşmış, dini mərasimləri, o cümlədən Qurban bayramını böyük ruh yüksəkliyi ilə qeyd etmişdir. Bu günlər ölkəmizin hər yerində xalqımızın və dövlətimizin əmin-amanlığı və firavanlığı üçün Allaha dualar səslənir, Vətən uğrunda həyatından keçən şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Əminəm ki, bu Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir".***

Naxçıvan Muxtar Respublikasında da İslami dəyərlər qorunub yaşadılır, dini ənənələrə hörmət və ehtiramla yanaşılır. Son illər yeni məscid binaları tikilmiş, dini abidələr bərpa edilmiş, müqəddəs ziyarətgahlar təmir olunaraq əhalinin istifadəsinə verilmişdir. Bu il də muxtar respublikada tarixi-mədəni irsimizin qorunub saxlanılması istiqamətində tədbirlər davam etdirilmiş, Əshabi-Kəhf ziyarətgahında təmir-bərpa işləri həyata keçirilmişdir. Qeyd edək ki, Əshabi-Kəhfdə ilk dəfə ümummilli lider Heydər Əliyevin tapşırığı və himayəsi ilə 1998-ci ildə bərpa işləri aparılmışdır. Son illər isə burada geniş yenidənqurma, bərpa və abadlıq işləri görülmüşdür. Ziyarətgahın ərazisində əl işlərinin və yerli məhsulların satış mağazaları fəaliyyət göstərir. Cari ildə abidədə aparılan kompleks təmir-bərpa işləri çərçivəsində ziyarətgahın su təminatı və işıqlandırma sistemləri yenidən qurulmuş, ərazi abadlaşdırılmış, zəvvarlar üçün hərtərəfli şərait yaradılmışdır.

Əshabi-Kəhf turistlərin də böyük marağına səbəb olur. Hər il buranı Azərbaycanın digər bölgələrindən və xarici ölkələrdən gələn minlərlə zəvvar, turist və qonaq ziyarət edir.

Muxtar respublikada dini dəyərlərimizə dövlət qayğısının, ehtiramın daha bir ifadəsi də dini mərasimlərin yüksək səviyyədə keçirilməsidir. Hər il Məhəmməd Peyğəmbərin mövludu günü, müqəddəs Ramazan və Qurban bayramları muxtar respublikada təntənəli şəkildə qeyd olunur. Bu gün sabitlik, sülh və əmin-amanlıq şəraitində yaşayan hər bir ailədə, hər bir evdə müqəddəs bayramlar qeyd olunur, Qurban bayramı süfrəsi açılır. Qurban bayramı günlərində sosial qayğıya ehtiyacı olan ailələrin yad olunması, onlara bayram sovqatlarının verilməsi dinimizə olan böyük ehtiramın daha bir ifadəsidir. Bütün bunların məntiqi nəticəsidir ki, 2009-cu ilin oktyabr ayında Bakı şəhərində keçirilən İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Mədəniyyət Nazirlərinin VI Konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmasına dair qərar qəbul edilmişdir. Həmin qərar sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə verilən yüksək qiymətin təzahürüdür. Çünki tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır. Qeyd edək ki, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Təşkilat Komitəsinin yaradılması ilə bağlı 2016-cı il 2 iyun tarixdə Sərəncam imzalamışdır.

"Qurban" sözü lüğəti mənada "yaxınlaşmaq" deməkdir. Yəni qurban kəsən hər bir kəs bu əməli ilə Allaha yaxınlaşır. Allah dərgahında kəsilən qurbanlar insanları xeyirxah əməllər ətrafında birləşdirir. Qurban bayramı eyni zamanda müsəlmanların Həcc ziyarəti mərasiminin də bir hissəsidir. Qurban bayramı bütün müsəlman aləmində hər il Hicri təqvimi ilə Zilhiccə ayının 10-cu günündən başlayır və adətən, üç gün davam edir. Üç səmavi dinin – İslam, Yəhudilik və Xristianlığın hər üçündə də müxtəlif formada qurbanlıq mövcuddur. Lakin İslamda bu ayin xüsusi mahiyyət və əhəmiyyət kəsb edir. Onun əsasında Allaha sonsuz sevgi, Onun qüdrətinə dərin inam və iman durur. Uca Tanrıya məhəbbətin, Rəbbimizin öz bəndələrinə lütf və mərhəmətinin ifadəsi olan müqəddəs Qurban bayramı əsrlərboyu insanların həmrəyliyinə, mənəvi saflaşmasına xidmət etmişdir.

Yüksək insani keyfiyyətlərdən olan dostluğun, qardaşlığın, fədakarlığın cəmiyyətdə inkişafı və gələcək nəsillərə təlqin edilməsi üçün gözəl fürsət kimi dəyərləndirilən Qurban bayramı hicrətin ikinci ilində fərz qılınmışdır. "Qurani-Kərim"in "Kövsər" surəsində deyilir: "Rəbbin üçün namaz qıl və qurban kəs. "De ki: "Mənim namazım da, kəsdiyim qurban da, həyatım və ölümüm də aləmlərin Rəbbi – Allah üçündür", "Biz hər bir ümmət üçün bir qurbangah müəyyən etdik ki, Allahın onlara ruzi verdiyi dördayaqlı heyvanların üstündə (onları kəsdikləri zaman) Allahın adını çəksinlər". Bundan əlavə, Peyğəmbərimiz buyurmuşdur ki: "Bayram namazından sonra qurban kəsən ibadətini tamamlamış və müsəlmanların sünnəsinə (yoluna) əməl etmişdir".

Ölkəmizdə rəsmi olaraq iki gün qeyd olunan bayramın özünəməxsus qurban kəsmək şərtləri vardır. Qurban ibadəti qurbanlıq heyvanın Qurban bayramı günlərində qayda-qanunlara uyğun şəkildə şəxsən qurban sahibinin özü tərəfindən kəsilməsi və ya başqasına kəsdirməsi ilə yerinə yetirilmiş olur. Qurban üzrlü səbəbdən bayram günü kəsilməzsə, bayramın ikinci, üçüncü günü də kəsilə bilər. Ancaq unutmayaq ki, bu ayini günün birinci yarısı, yəni gün dönməzdən əvvəl yerinə yetirmək lazımdır. Qurban bayramında hər bir imkanlı müsəlman qurban kəsib onun ətini imkansızlara, kasıblara paylamalıdır. Burada əsas məqsəd xeyirxahlığa nail olmaqdır.

İmkanı olmayan ailələrin qurban kəsməsi vacib deyil. Bu yalnız buna imkanı olan adamların boynunda haqdır. Qurban əti satılmaz və ya satın alınmaz. Qurban yalnız paylanmaq üçün kəsilər ki, bu paylamanın da şərtləri vardır. Belə ki, kəsilmiş qurban üç yerə bölünür. Həmin üç hissənin biri ehtiyacı olan qonşulara, bir hissəsi qohum-əqrəbaya paylanılır, digər bir hissəsi isə evdə saxlanılır. Quşlardan və ov heyvanlarından qurban kəsmək doğru deyil. Qurban kəsmək ibadəti həm də insanlarla sərvətini ehtiyacı olanlarla paylaşmaq əxlaqını qazandırır.

Qurban bayramının ən gözəl xüsusiyyətlərindən biri də odur ki, burada din, məzhəb ayrı-seçkiliyinə yol verilmir. Bu bayramda istənilən dindən olan yetimin, kimsəsizin və yoxsulun haqqı var ki, varlının imkanlarından bəhrələnsin. Qurban kəsmək o deməkdir ki, insanlar Allahın xoşuna gələcək bir əməli icra edirlər. Ona görə də qurban kəsmək və onu paylamaq sosial bərabərliyə ən gözəl nümunələrdən biri hesab olunur.

Qurban bayramının cəmiyyətdəki ictimai münasibətlərə də təsiri böyükdür. Ramazan bayramı kimi, bu bayram da özündə bəzi vacib şərtləri ehtiva edir. Bayram, ümumiyyətlə, hər hansı bir əlamətdar hadisənin qeyd olunmasına deyilir. Hər iki bayramda hava işıqlaşandan sonra iki rükətli bayram namazı qılınır. Bayram günlərində valideynlərə, qohumlara, qonşulara baş çəkmək, başqalarına qarşı daha səmimi, xoş rəftarlı, gülərüz olmaq, bayram ab-havasını pozan hərəkətlərə yol verməmək tövsiyə olunur. İslam dinində mövcud olan bu iki böyük bayramın hər ikisi qısa zaman çərçivəsində yerinə yetirilən ibadətlərdən fərqli olaraq, Ramazan bayramı otuzgünlük ibadətin sona yetməsi, Qurban bayramı isə bir neçə həftəlik həcc əməllərinin yerinə yetirilməsinin başa çatması münasibətilə qeyd edilir.

Biz də Qurban bayramı münasibətilə bütün müsəlman həmvətənlərimizi təbrik edir, Allahdan xalqımıza sülh, əmin-amanlıq və bol ruzi diləyirik.

**Vüqar BABAYEV**
***Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi***

# ADA Universiteti tərəfindən Naxçıvanda üçgünlük ixtisasartırma kursuna başlanılıb



Dünən ADA Universiteti tərəfindən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin əməkdaşlarının iştirakı ilə üçgünlük ixtisasartırma kurslarına start verilib. Kursun birinci günü adıçəkilən idarənin diplomatik heyət üzrə 13 əməkdaşına ictimai diplomatiya, diplomatik protokol və konsulluq xidmətinin yeni trendləri haqda ətraflı məlumat verilib.

Kursun ilk təqdimatı ADA Universitetinin aparat rəhbəri Şəfəq Mehralıyeva tərəfindən olub. O, iştirakçılara ADA Universitetinin fəaliyyəti haqda ümumi məlumat verib, ictimai diplomatiyanın yeni trendləri, Azərbaycan milli kimliyi, diasporaya yardım məsələləri barədə danışıb. Kursun davamı suallar və cavablandırmalar üzərində qurulub.

Kursun ikinci günündə universitetin əməkdaşları tərəfindən kurs iştirakçılarına ölkənin tanıdılması, mətbuata bəyanatların hazırlanması, diplomatik protokolun mahiyyəti və tarixi, diplomatik əlaqələr üzrə Vyana Konvensiyası, dövlət səfərləri haqda ətraflı məlumat veriləcək.

Məlumat üçün bildirək ki, kursun üçüncü günündə ADA Universitetinin əməkdaşları Fəxrəddin Qurbanov, Hikmət Hacıyev, Şəfəq Mehralıyeva tərəfindən diplomatik protokol, diplomatik etiket və digər məsələlər barədə danışılacaq. Bundan başqa, əməli media ələqələri, diplomatiyada sosial medianın rolundan söhbət açılacaq. Yekunda iştirakçıların bilikləri qiymətləndiriləcək. Kursun ikinci mərhələsi oktyabr ayında keçiriləcək, kursu uğurla başa vuran iştirakçılara sertifikatlar təqdim ediləcək.

ADA Universiteti tərəfindən bu qəbildən kurslar 2007-ci ildən keçirilir. Naxçıvan Muxtar Respublikasında isə belə tədbir ilk dəfədir ki, təşkil edilib. Bu kursda diplomatiya və digər istiqamətlərlə yanaşı, konsulluq məmurlarının əsas vəzifə və məsuliyyətləri haqda da ətraflı söhbət açılır.

**Səbuhi HÜSEYNOV**

## Elan

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində icra məmuru vəzifələrinə işə qəbulla əlaqədar müsabiqənin vaxtı uzadılmışdır.***

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi "Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq icra məmuru vəzifələrinə müsabiqə elan etmişdir. Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə çatdırılır ki, sənədlərin qəbulu 2016-cı il oktyabr ayının 10-dək uzadılmışdır.

***Əlavə məlumatlar almaq üçün 545-00-69; 545-22-30 nömrəli telefonlar vasitəsilə müraciət etmək olar.***

## İtmişdir

Fərəcov Səid Rzaqulu oğlunun adına olan 0200331702 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**TURAL SƏFƏROV**

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 685